# Göyərçin

№4 2001

ISSN-0207-4710



# İKİ QOCA ƏSGƏR

**FRANSIZ NAĞILI**

İki qoca əsgərin 60 yaşı tamam olanda, onlar təqaüdə çıxdılar. Vətənə dönən əsgərlər necə yaşayacaqları haqqında düşündülər. Təzədən sənət seçmək gec idi, əli-ayağı sağ adama isə dilənmək yaramazdı. Birdən əsgərlərdən birinin ağlına qəribə bir fikir gəldi. Dedi ki, gəl püşk ataq, püşk kimə düşsə, onun gözünün birini çıxaraq və dilənçi kökünə salaq.

Onlar razılaşdılar. Püşk bu fikir ağlına gələnə düşdü. Dostu onun bir gözünü çıxardı. Onlar dilənçi görkəmində qapı-qapı gəzib pul yığmağa başladılar. Gözü kor əsgərə hamının rəhmi gəlir, ona sədəqə verirdilər. Dostu isə bu pulları özü xərcləyir, kor dostuna qarın dolusu yemək də qıymırdı.

Gözü çıxarılan əsgər gileylənəndə o biri əsgər dostunu hədələdi. Şikəst dostunu meşədə taleyin umuduna buraxıb getdi. Kor əsgər nə qədər çalışdısa, meşədən çıxa bilmədi. Nəhayət, bir ağacın yanında dayandı, xəyallara dalıb öz taleyini düşündü. Gecə vəhşi heyvanlardan qorunmaq üçün o, ağaca çıxdı.

Gecə yarısı ağacın yanına bir tülkü, bir canavar, bir qaban və bir cüyür gəldi.

- Mən elə bir şey bilirəm ki, heç kəs onu bilmir, - Tülkü lovğalandı.

- Mən də bir şey bilirəm, - Qurd dilləndi.

- Mən də bilirəm, - Cüyür dil açdı.

- Bu balaca boyunla sən heç nə bilə bilməzsən, - Qaban onu lağa qoydu.

Mübahisə başlandı. Qərara gəldilər ki, hərə öz bildiyini danışsın. Tülkü dedi ki, burdan bir az uzaqda bir çay axır. O çayın suyu kor gözə işıq gətirir.

- Mən də o çayı tanıyıram, - Qurd dilləndi. Kralın qızı bərk xəstədi. Kim o çayın suyundan qıza içirsə, o sağalacaq.



Cüyür öz bildiyini danışmağa başladı:

- Lion şəhərində su qıtlığıdır. Kim şəhərə su gətirmək yollarını tapsa, ona on beş min frank pul verəcəklər. Azadlıq meydanının yanındakı ağacın ətrafını qazsalar, mütləq oradan su çıxacaq.

Qaban e'tiraf etdi ki, o heç bir sirr bilmir.

Heyvanlar çıxıb gedəndən sonra kor əsgər gedib çayı tapdı, suda yuyunan kimi gözü sağaldı. Sonra o, Lion şəhərinə getdi, dedi ki, mən şəhərə su gətirməyin yolunu bilirəm.

Qoca əsgərin dediyi yeri qazan kimi, su fontan vurdu. Əsgərə çoxlu pul verdilər.

Qoca əsgər kralın sarayına getdi, dedi ki, mən xəstə qızı sağalda bilərəm.

Əsgər gətirdiyi suyu qıza içirən kimi o, sağaldı. Kral sözünün üstündə durdu, qızını əsgərə verdi. Qoca əsgərin xoşbəxt günləri başladı. Bir gün o dilənçi dostunu gördü. Ondan soruşdu ki, bəs sənin dostun hanı? Fırıldaqçı əsgər yalan danışanda, onun keçmiş dostu özünü təqdim etdi, başına gələn əhvalatı danışdı.

Dilənçi dostundan üzr istədi, xahiş etdi ki, məni də meşədəki həmin ağacın yanına apar. Bəlkə xoşbəxtlik mənə də nəsib oldu.

Dostu onunla razılaşdı, e'tibarsız dostunu həmin ağacın yanına apardı.

Gecə həmin heyvanlar yenə gəldilər. Təəccüblə dedilər ki, bizim danışığımızı kimsə eşidib. Onlar hər yanı axtardılar. Birdən ağacın başında əsgəri gördülər. Ağacı silkələyib qoca əsgəri yerə saldılar və onu parçaladılar.

Tərcümə edib işləyəni R. ƏLİYEV